

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 16 (20.917)

*28 yanvar 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Muxtariyyət ili” ilə əlaqədar açıq dərs keçilib

***Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində Babək qəsəbə və Qoşadizə kənd tam orta məktəbləri şagirdlərinin iştirakı ilə açıq dərs keçilib. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə keçilən açıq dərsdə Qoşadizə kənd tam orta məktəbinin tarix müəllimi Cəfərqulu Quliyev “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda danışıb. Bildirilib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası həm tarix və mədənilik baxımından, həm də yerləşdiyi geostrateji mövqeyinə görə həmişə maraq dairəsində olub. Bu səbəbdən bu qədim diyar tarixin müxtəlif dövrlərində işğal xarakteri daşıyan hücumlara məruz qalsa da, bütün çətinliklərə sinə gərib və öz varlığını qoruyub saxlaya bilib.***

Vurğulanıb ki, sovet rəhbərliyi tərəfindən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşüb. Qədim diyarın muxtariyyət statusu məsələsində görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, məsələ ilə bağlı Moskvada apardığı danışıqlar, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktub, nəhayət, Rusiyanın Naxçıvan məsələsinə münasibətini müsbət istiqamətdə dəyişməsinə səbəb oldu. Nəticədə, Naxçıvan muxtar statusu RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsində təsbit edildi. Elə həmin il oktyabrın 13-də RSFSR ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə arasında imzalanmış Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Həmin müqavilələrlə Rusiya, Türkiyə və Cənubi Qafqaz respublikaları Naxçıvana Azərbaycanın tərkibində muxtar qurum kimi tanınan beynəlxalq hüquqi təminat verdilər.

Qeyd olunub ki, muxtar qurumlar yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi əlamətlərinə ayrılır. Naxçıvan Muxtar Respublikası dövlətin əsas ərazilərindən tam təcrid olunmuş vəziyyətə, geosiyasi əsasa görə yaranıb. Belə coğrafi-siyasi əlamət tarixi zərurət kimi Naxçıvana muxtar hüquqların verilməsini şərtləndirib və qismən özünüidarə hüququnun tanınmasına yol açıb. Çünki Zəngəzur mahalının Ermənistana verilməsi ilə Naxçıvan diyarı Azərbaycanın əsas ərazilərindən aralı düşüb, nəticədə, muxtariyyət məsələsi gündəliyə gəlib.

“Naxçıvanın Azərbaycan SSR-in tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi”, – deyən Cəfərqulu Quliyev bildirib ki, həmin il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən, Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR tərkibində muxtar respublikaya çevrildi. Bununla da, qədim diyarın statusu qəti şəkildə müəyyənləşdi.



Babək qəsəbə tam orta məktəbinin tarix müəllimi Möhsün Həsənov “Naxçıvan müstəqillik illərində” mövzusunda danışaraq bildirib ki, ötən əsrin sonlarında, bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanılmasına imkan yaradıb. Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm amil olub. Bu status ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvanın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizədə xüsusi əhəmiyyət kəsb edib.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

---

***Ordubad Rayon Vergilər Şöbəsində “Nağdsız hesablaşmaların üstünlükləri” mövzusunda vergi ödəyiciləri ilə görüş keçirilib.***

## Nağdsız hesablaşmaların üstünlükləri müzakirə edilib

Tədbiri rayon Vergilər Şöbəsinin rəisi Məhəmməd İbadov açaraq qeyd edib ki, nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, nəticədə isə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. Nağdsız hesablaşmaların ödəniş kartları, bank köçürmələri, çeklər və sair kimi müxtəlif növləri mövcuddur. Onlardan ödəniş kartlarını xüsusilə qeyd etmək lazımdır. Nağdsız ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin genişləndirilməsi cəmiyyətdə maliyyə sabitliyinin qorunub saxlanılması baxımından zəruri sayılır. Bildirilib ki, nağdsız ödəniş pul nişanlarından istifadə etmədən pul vəsaitlərinin bir bank hesabından digər bank hesabına köçürülməsi vasitəsilə həyata keçirilən hesablaşmadır. Hazırkı mərhələdə nağdsız əməliyyatlar “POS-terminal” adlanan aparatlardan və internetdən istifadə etməklə kartların köməyi ilə aparılır.

Qeyd edilib ki, nağd pul itdikdə, oğurlandıqda onu qaytarmaq çətin olduğu halda, plastik kart itirilsə belə, digər şəxslər ondan istifadə edə bilmirlər və beləcə, pul itmiş və oğurlanmış sayılmır. Kart itəndə, yaxud oğurlananda banka məlumat vermək kifayətdir ki, bloklaşdırma aparılsın və heç kim ondan istifadə edə bilməsin. Bundan başqa, nağdsız ödənişlərin hamısı rəsmi qeydiyyata alınır və bu vəsaiti vergidən yayındırmaq mümkün deyil. Bu isə o deməkdir ki, nağdsız ödənişlərin genişlənməsi dövlət büdcəsinə daxilolmaları da şəffaflaşdırır.

Sonda iştirakçıların sualları cavablandırılıb, vergi ödəyicilərinin nağdsız hesablaşmaların aparılmasındakı rolu müzakirə edilib.

---

## Aqrar sektorun inkişafına qayğı dinamik xarakter alıb

İqtisadiyyatda öz aparıcı mövqeyini qoruyan kənd təsərrüfatı sektoru 2013-cü ildə də muxtar respublikada diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”na uyğun olaraq, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bunu Culfa rayonunun timsalında da görmək mümkündür.

2013-cü ildə bölgənin kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştli şərtlərlə 218 min 100 manat dəyərində 605,5 ton mineral gübrə satılmış, yanacaq və motor yağlarına görə 40 manat hesabı ilə 1002 istehsalçıya 295 min 400 manat yardım edilmiş, həmçinin muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları tərəfindən 72 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 104 min manat kredit verilmişdir. Həmin kreditin 83 min manatından əkinçilikdə, 21 min manatından isə heyvandarlıqda istifadə olunmuşdur. Bu dövrdə rayona 31 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı alınıb gətirilmişdir.

Aqrar sektorda özəl bölmənin xüsusi çəkisi var. Bu səbəbdən də özəl bölməyə qayğı davam etdirilmiş, sahibkarlar müxtəlif dövlət yardımlarından bəhrələnmişlər. Belə ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Fondu tərəfindən rayonda bağçılıq təsərrüfatının yaradılması üçün 52 min, kompot istehsalı üçün 10 min, quşçuluq təsərrüfatının yaradılması üçün 15 min, pendir istehsalı üçün 29 min, meyvə-tərəvəz qurudulması sahəsinin yaradılması üçün 34 min və heyvan yemi istehsalı üçün 12 min, istixana kompleksinin yaradılması üçün 15 min manat olmaqla, ümumilikdə, 8 layihə üzrə güzəştli şərtlərlə 167 min manat kredit verilmişdir. Yeni istehsal sahələrinin yaradılması tələbat malları istehsalı ilə yanaşı, əhalinin məşğulluq problemlərinin həllinə də əhəmiyyətli təsir göstərmişdir. 2013-cü ildə rayonda 116 yeni iş yeri açılmışdır.

---

## “Müasir Məkan”da yeni istehsal sahələri yaradılır

***Naxçıvan şəhərində fəaliyyət göstərən özəl müəssisələrdən biri də “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsidir. Bu müəssisə də dövlət qayğısından bəhrələnmiş, müəssisəyə Sahibkarlığa Kömək Fondu tərəfindən 2010-cu ilin mart ayında 260 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.***

Naxçıvan şəhərinin Babək məhəlləsində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina tikilib istifadəyə verilmişdir. 2011-ci ilin əvvəlində istifadəyə verilən müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaradılmışdır. Hazırda müəssisədə “Naxçıvan”, “Halal” və “Doğma tam” çeşidlərdə hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiska istehsal olunur. Onu da qeyd edək ki, müəssisə fəaliyyətə başlayan zaman 2-3 çeşiddə ət və ət məhsulları istehsal olunurdusa, hazırda burada 22 çeşiddə məhsul istehsal edilir.

Burada xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək texnoloji proseslərə ciddi əməl olunur: ət və hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və satışa buraxılır.

“MM” əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışını təmin etmək məqsədilə Bakı şəhərində satış mərkəzi yaradılmışdır. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır.

İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələrinin yaradılması məqsədilə ətin konservləşdirilməsi, tara və ətin qovrulması istehsalı sahələrinin biznes-planı hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 2013-cü ilin sentyabr ayında dövlət maliyyə dəstəyi göstərilmiş və layihənin icrasına başlanılmışdır. Ətin konservləşdirilməsi istehsalı sahəsi üçün Almaniyanın “ASCA” şirkətindən istehsal gücü saatda 600 ədəd 400 qramlıq tara olan, ətin konservləşdirilməsi istehsalı sahəsində isə istifadə olunacaq tara istehsalı üçün Çin istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb gətirilmişdir. Ətin qovrulması istehsalı sahəsi üçün Türkiyə Respublikasından bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətlərlə müqavilələr bağlanmış, maliyyə vəsaiti ödənilmişdir. İstehsal gücü gündə 2 ton olan avadanlıqlar yaxın günlərdə alınıb gətiriləcək və şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Yeni istehsal sahələrinin yaradılması daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradacaq, 15 nəfər daimi işlə təmin olunacaqdır.

---

***Bu barədə qəzetimizə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Vüqar Səfərov məlumat verib. Onun sözlərinə görə, xalçalarla yanaşı, hazırlanan digər əl işlərinin üzərində də “Naxçıvan – 90”***

## Bu il xalq yaradıcılığı emalatxanasında toxunacaq bütün xalçaların üzərində “Naxçıvan – 90” yazılacaq

***ifadəsinin əksini tapması nəzərdə tutulub. Hazırda xalq yaradıcılığı emalatxanasında 3 xalça toxunur. Xalçaların toxunmasına yanvar ayından başlanılıb və toxucular, əsasən, Naxçıvan xalçaçılığına məxsus olan ornamentlərdən istifadə edirlər.***

Muxtar respublikamızda xalçaçılıq ənənələrinin yaşadılması, keyfiyyətli yerli xalçaların istehsalının kütləviliyinə nail olunması, evlərdə kiçik xalça istehsal sahələrinin yaradılması son dövrlərdə xüsusilə diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Qeyd edək ki, bir müddət öncə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs keçməyə dəvət edib. Xidmət tərəfindən verilmiş elanda bildirilir ki, peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il fevralın 10-dək tələb olunan sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində açılmış xalçaçılıq üzrə peşə kursları, Naxçıvan Qızlar Liseyində tikiş, toxuculuq və xalçaçılıq dərnəyinin fəaliyyətə başlaması, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunmasının təşkili gələcəkdə hər bir xalçaçının özünün bir kiçik toxuculuq fabrikinin, müəssisəsinin sahibinə çevrilməsinə imkan verəcək.

---

## “Naxçıvan xalçaçıları” kitabı Nyu-Yorkda nəşr olunub

***“Naxçıvan xalçaçıları” kitabı ABŞ-da ingilis dilində çapdan çıxıb. Kitab Nyu-Yorkun “Hudson Publishing” nəşriyyat evində çap edilib.***

Professor Vidadi Muradovun müəllifi olduğu kitabın ingilis dilində nəşr olunması Azərbaycan xalçaçılığının dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Nəfis tərtibatı ilə diqqəti cəlb edən kitabda Naxçıvan Muxtar Respublikasının 7 rayonunun 68 kəndindən 254 toxucu haqqında məlumatlar, rəngarəng ekspedisiya materialları yer alıb. Kitabda Şahbuzdan 31, Şərurdan 58, Babəkdən 49, Culfadan 37, Sədərəkdən 8, Kəngərlidən 35, Ordubaddan 36 toxucunun həyat və fəaliyyəti ilə yanaşı, qədim abidələrdən, şəxsi fantaziyalardan qaynaqlanaraq toxunan xalçalardan da bəhs edilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Əhalinin qətiyyətli mövqeyi Naxçıvan diyarını xilas etdi

**(Əvvəli qəzetimizin 25 yanvar 2014-cü il tarixli sayında)**

***Ermənilər general-qubernatorluq elan etsələr də, nə ingilis nümayəndələri, nə də general-qubernator şəhərdə yerləşə bilməmiş, onlar şəhərdən 3 kilometr uzaqda hərbi kazarmada yerləşmişdilər. Kalbalı xanın başçılığı ilə Naxçıvan xalq qoşunu daşnak qüvvələrini darmadağın edib Naxçıvan və onun ətraflarından qovdular. Bu zaman ermənilər bir neçə min adam, iki top, səkkiz pulemyot və bir zirehli qatar itirdilər. 800 erməni əsgəri və 8 zabiti əsir alınmışdı. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini buranın müvəqqəti general-qubernatoru təyin etdi. Bundan sonra diyarı idarə etmək üçün zəruri olan dövlət idarələri yaradıldı. S.Cəmillinskinin əmri ilə Xəlil bəy diyar qoşunlarının baş komandanı, Kalbalı xan isə onun köməkçisi (eyni zamanda Naxçıvan qoşun dəstəsinin komandiri) təyin olundu.***

1919-cu ilin yayında Naxçıvanda olan amerikalı polkovnik Rey Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xanla danışıqlar apardı. Polkovnik V.Haskel Naxçıvan, Şərur və Dərələyəz qəzalarında xüsusi zona və bu ərazidə Amerika general-qubernatorluğu yaratmaq istəyirdi. Bununla əlaqədar V.Haskel öz layihəsini N.Yusifbəyliyə təqdim etdi. Bunu eşidən cənub-qərbi Azərbaycan müsəlmanlarının ümumi iclasının sədri Əli Səbri Qasımov, yerlilər cəmiyyətinin sədri Z.Məmmədov və nümayəndə heyətinin üzvü A.Nəcəfov hazırladıqları 10 maddəlik tələbnaməni N.Yusifbəyliyə təqdim etdilər. Bu tələblərin əsasında Naxçıvanı Azərbaycanın tərkibində saxlamaq fikri dayanırdı.

1919-cu il sentyabrın əvvəllərində Naxçıvan nümayəndələri Ə.S.Qasımov və K.M.Əsgərov polkovnik V.Haskelə 10 bəndlik memorandum təqdim etdilər. Görüş zamanı V.Haskel Ə.S.Qasımovdan soruşmuşdur ki, Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar? Əli Səbri Qasımov bildirmişdir ki, əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər.

Naxçıvan əhalisi polkovnik Reyə bildirmişdir ki, onlar azərbaycanlı general-qubernatordan başqa, heç kimi tanımaq istəmir. Əhalisi Azərbaycan türkləri olan Naxçıvan, Şərur, Dərələyəz rayonları, Vedibasar və Milistan Azərbaycanın ayrılmaz hissəsidir.

Delli və Reyin missiyası süquta uğramış, amerikalıların Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmamışdır.

1920-ci ilin martında türk hərbi dəstələri Naxçıvana gəldi. Kalbalı xan Türkiyənin yüksək hərbi ordeni ilə təltif edildi. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi idarəsi isə daşnaklarla döyüşlərdə göstərdiyi igidliyə görə ona general-mayor rütbəsi verdi.

1920-ci ilin aprelində Azərbaycan XI Qırmızı Ordu tərəfindən işğal edildi, Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycanda Sovet hakimiyyəti bərqərar olundu. Naxçıvanda Sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Bir neçə gündən sonra – avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bektaşov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktubla müraciət etdi: *“Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir”.*

Çox qəribədir ki, Naxçıvanda olan bolşevik ordusu Ermənistanla müharibə aparır, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın hətta mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən N.Nərimanov V.İ.Leninə göndərdiyi məktubda yazırdı: *“Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir...”*

Naxçıvanın əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozur. Bu işdə iri dövlətlər də onlara kömək göstərə bilmirlər. Məkrli niyyətlərini, hələlik, pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil (Azərbaycanın tərkibində yox – İ.H.) Sovet Respublikası kimi tanımış və bu diyar ilə əlaqədar iddialarından imtina etmişdir.

Beləliklə, bölgə əhalisi 1918-1920-ci illərdə misilsiz çətinliklərə, təqiblərə, müsibətlərə sinə gərərək milli ləyaqəti uca tutmuş, diz çökməmiş, erməni silahlı quldur dəstələrinə layiqli cavab vermişdir. Bu məsələdən bəhs edən Ermənistanın birinci baş naziri O.Kaçaznuni 1923-cü ildə etiraf edirdi ki, “Müsəlman Naxçıvanı və Şərurunda,... müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik”.

Naxçıvan diyarının əhalisi heç vaxt özünü Azərbaycandan ayrı təsəvvür etməmişdir. Naxçıvanlılar hələ o vaxt öz qəti fikirlərini belə ifadə etmişdilər: *“Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz”.*

1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin keçirdikləri rəy sorğusunda Naxçıvanın 90 faiz əhalisi mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında B.Şahtaxtinskinin də böyük əməyi və tarixi xidməti olmuşdur. O, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı bildirmiş, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdir. Bu zaman Türkiyə nümayəndələrinin Rusiya ilə apardığı danışıqlarda Naxçıvan məsələsinə də önəm verilirdi. Beləliklə, referendumun nəticəsi, B.Şahtaxtinskinin təklifi, Türkiyə tərəfinin tələbi ilə Naxçıvan üzərində Azərbaycanın suverenliyinin təmin edilməsinə və ən nəhayət, Naxçıvan əhalisinin neçə illər apardığı inadlı mübarizə Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səbəb oldu. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Sosialist Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində də bu cəhət öz əksini tapdı: *“Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir”.*

Güney Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi (1921, 13 oktyabr) Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi.

Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni qaydada həll olundu.

1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi xeyli müzakirələr getmişdir. Bu müzakirələrdə bir cəhət aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi.

1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar (ölkə) adlandırıldı. 1924-cü il yanvarın 4-də Zaqafqaziya MİK Naxçıvan diyarını Naxçıvan MSSR elan etdi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-nın Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul edilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtar respublika kimi göstərilmişdir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu olmuşdur. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: *“Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir”.*

Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasında Naxçıvan muxtar dövlət kimi göstərilmiş və onun Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilmişdir.

Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50 illik yubileyləri keçirilmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi qeyd edilmişdir. Yubiley tədbirlərində iştirak edən və təntənəli yubiley iclasında nitq söyləyən ümummilli lider Heydər Əliyev demişdir: ***“Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir”.***

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 9 fevral 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik, 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə 85 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz ifadəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında göstərilir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvanın muxtariyyət statusunun ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğunu bildirərək demişdir: ***“Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin”.***



Bu gün muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyət daşıyan məqam əks olunmuşdur. Həmin hissə Ali Məclis Sədrinin tövsiyəsi ilə hazırlanmış və nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilmişdir. Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan 2 beynəlxalq müqaviləyə əsaslanır. Bundan başqa, qeyd olunmuşdur ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Maddənin sənədə salınması Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir. İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən və 1921-ci ildə imzalanan Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilir. Ölkəmiz, o cümlədən muxtar respublikamız üçün mühüm olan beynəlxalq müqavilənin hüquqi qüvvəsinin Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilat tərəfindən tanınması, şübhəsiz ki, ölkə və muxtar respublika rəhbərinin bu sahədə apardığı fəal diplomatik fəaliyyətin məntiqi nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası son 18 il ərzində hərtərəfli inkişaf etmiş, əsl intibah dövrünü yaşamaqdadır.

*Naxçıvanın muxtar respublika statusu bu bölgənin 90 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi:* ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi dövlətin silahlı qüvvələrə qayğısının təzahürüdür



*Budur, Naxçıvan şəhərində son illərin ən möhtəşəm quruculuq ünvanlarından olan yaşayış komplekslərindən birinin qarşısındayıq. Həmin yaşayış kompleksi ki, 2013-cü il dekabr ayının 31-də 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş 16 hərbi qulluqçuya buradan yeni mənzillər verilmişdir. Biz də həmin ailələrdən birində olduq, yaşayış kompleksinin 15-ci mərtəbəsində yaşayan Quliyevlər ailəsinin qapısını döydük.*

Qapını ailənin böyük oğlu Elməddin açdı. Evin xanımı bizi evə dəvət etdikdən sonra həyat yoldaşını gözləməli olacağımızı bildirdi. Çay süfrəsi arxasında polkovnik-leytenant Zirəddin Quliyevi gözləməli olduq. Fürsətdən istifadə edib evlə tanışlığı da yadımızdan çıxarmadıq. Ən yüksək komfort və dizayn elementləri ilə ilk baxışdan diqqəti cəlb edən mənzildə ailənin yaşayışı üçün hərtərəfli şərait yaradılıb.

... Budur, Zirəddin Quliyev özünü çatdırır. “N” hərbi hissənin komandiri gülümsəyərək: – Hərbi belədir də, onun iş saatı bəlli deyil, – deyə söhbətə başlayır.

İstərdim, oxuculara Zirəddin Quliyev haqqında qısa məlumat verim. Ötən il 40 yaşını tamam edən bu hərbçi qardaşımız Daşkəsən rayonunun Quşçu kəndindəndir. Ailədə 7 övladın 4-cüsüdür. O, 22 ildir ki, hərbi formanı qürurla geyinir. Daşkəsən, Gədəbəy, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edən Zirəddin Quliyev həm də müharibə veteranıdır. Təbii ki, məlum hadisələrə görə o zamanlar ordumuzda bir çox çətinliklər var idi. Buna baxmayaraq, o, Vətənin ağır günündə belə çətinliklərdən qorxmadı. Çünki Zirəddin Quliyev uşaqlıqdan bir arzu ilə yaşayıb: hərbçi olmaq. Bu yolda rastlaşdığı heç bir çətinlik onu qorxutmayıb. Hərbi xidmətini başa vurmağa az qalmış o, hərbi təhsil almaq üçün sənədlərini Bakı şəhərinə göndərir. Aylarla imtahana hazırlaşır. Həmin vaxt ən yüksək nəticə göstərən gənclərdən biri olur. Təyinatla hərbi xidməti üçün Naxçıvana göndərilir.

*– O zamanlar gənc bir zabitə blokada vəziyyətində olan bir bölgədə xidmət etmək çətin gəlmədimi?*

– Əsl hərbçi heç bir zaman bu haqda fikirləşməməlidir. İstər mərkəz, istər sərhəd. Mənim bir amalım var idi: hara olur-olsun, dövlətimə xidmət edib Vətənimi qorumaq. Bu sualınız məni 15 il əvvələ qaytardı. Heç yadımdan çıxmaz. İlk dəfə bura gələndə, təyyarədən Naxçıvana baxanda bu diyar necə də yalnız görünürdü. Naxçıvanın o küskün mənzərəsi indi də yadımdadır. Blokadaya alınmış Naxçıvanın kədərini, düşdüyü vəziyyəti yaxşı dərk edirdim. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının ərazisindəki birləşmələrinin o zamankı və indiki vəziyyətini yaxşı xarakterizə etmək imkanına malikəm. O zamanlar bütün sahələrdə olduğu kimi, hərbi hissələrdə də çətinliklər yox deyildi. Elə o illərdə ordu quruculuğu istiqamətində müxtəlif addımlar atılmasına başlanılmışdı. Hərbi hissələrin maddi-texniki bazası gücləndirilir, hərbi qulluqçuların mənzil şəraitləri yaxşılaşdırılırdı. İndi hərbi hissələrdə, demək olar ki, heç bir problem yoxdur.

Zirəddin Quliyev bu gün Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrdə böyük ruh yüksəkliyinin olduğunu fəxrlə söyləyərək əlavə edir:

– O ordu güclü deyil ki, onun güclü hərbi texnikası var, – deyənlərin sözündə böyük həqiqət var. Ordunun gücü əsgər və zabitlərdə olan sarsılmaz ruh yüksəkliyindədir. Bu gün belə ruh yüksəkliyini Azərbaycan Silahlı Qüvvələrinin bütün hərbi hissələrində müşahidə etmək mümkündür. Fəxr edirəm ki, hərbçilərimizdə gələcək labüd qələbəyə böyük inam vardır. Bunu muxtar respublikada yerləşən hərbi hissələrin timsalında daha aydın görmək olar. Uzağa getməyək. Mən burada xidmət elədiyim 15 il müddətində hər zaman “xalq-ordu” birliyinin sarsılmazlığını görmüşəm. Mütəmadi olaraq muxtar respublika əhalisi, nazirlik, komitə, baş idarə, müəssisə və təşkilatların, sahibkarlıq qurumlarının nümayəndələri bizimlə görüşə gəlirlər. Baxmayaraq ki, bizim heç nəyə ehtiyacımız yoxdur. Dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunmuşuq. Xalqın bizim görüşümüzə gəlməsi bir məqsəd daşıyır: xalq bizimlədir, arxa cəbhə bizimlədir. Hərbçilərdə böyük ruh yüksəkliyinin olması həm də bununla bağlıdır.

*– Bu günlərdə evlə təmin edilən hərbçi ailələrindən biri də siz oldunuz. Hansı hissləri yaşayırsınız?*

– 2013-cü il dekabr ayının 31-də ikiqat sevinc yaşadıq. Qüsursuz xidmət etdiklərinə görə mənzillə təmin olunan hərbçilər sırasında mənim də adımın olması ailəmi daha çox sevindirdi. Vətənə qüsursuz xidmətdən böyük nə xoşbəxtlik ola bilər? Mən Naxçıvanda hər zaman bir hərbçi kimi Naxçıvan Muxtar Respublika rəhbərinin diqqət və qayğısını öz üzərimdə hiss etmişəm. Bu qayğının davamı olaraq mənzillə təmin edilməyim ailəmizlə yanaşı, Bakıda və digər rayonlarda yaşayan qohumlarımızın da böyük sevincinə səbəb oldu. Bir də ona sevinirəm ki, Naxçıvanda bir ocağım var. Mən təqaüdə çıxdıqdan sonra Naxçıvanda qalacağam. Çünki artıq inanmıram ki, Naxçıvandan başqa hardasa yaşaya biləm. O qədər bu torpağa bağlanmışam ki, buranın sakitliyini, təmizliyini, əmin-amanlığını heç bir şəhərə dəyişə bilmərəm.



Söhbətimizə evin böyük oğlu 14 yaşlı Elməddin də qoşulur. Böyüyəndə nə olmaq istədiyini soruşanda heç düşünmədən, – hərbçi olacağam, – deyir. O, növbəti ildə Heydər Əliyev adına Hərbi Liseyə sənədlərini təqdim edəcək.

– Atanın işindəki çətinlikləri görürsən, bəzən günlərlə evə gəlmir. Yenə də hərbçi olmaq arzusundasan? – sualıma konkret cavab verir:

– Hərbçini heç bir çətinlik qorxutmamalıdır. Mənim üçün hər şeydən əvvəl Vətəndir.

Digər otaqdan saz səsi gəlir. Diqqətimizi çəkir. Bu isə evin balaca oğlu Xaləddindir. Saz çalmağa böyük həvəsi var. Əliabad qəsəbəsindəki Uşaq Musiqi Məktəbinin saz sinfində təhsil alır. Saza olan həvəsi isə təsadüfi deyil. Çünki Xaləddinin nənəsi Aşıq Ələsgərin nəvəsidir.

Yavaş-yavaş söhbətimizi yekunlaşdırırıq. Elə bu zaman ailə üzvlərindən birinə məxsus olan mobil telefona zəng gəlir. Zəngin musiqisində oxuyur:

*İgid əsgər, möhkəm dayan,*
*möhkəm dayan..*
*Ya azad ol, ya candan keç...*

Zirəddin müəllim musiqinin diqqətimi çəkdiyini görüb Elməddinə baxır, gülümsəyir. Öyrənirik ki, Elməddin bu musiqini çox sevir. Görünür, ailədə həm əsl hərbçi var, həm də əsl hərbçi yetişir.

Yavaş-yavaş söhbətimizi yekunlaşdırırıq. Ailə ilə sağollaşıb aşağıya enirik. Zirəddin müəllim də bizimlədir. Ondan vaxtını aldığımız üçün üzrxahlıq edirik. Gülümsəyərək o, xidməti maşınına minir, yenidən hərbi hissəyə qayıdacağını bildirir.

***Saat artıq 19-dur. Hava da qaralmaqdadır. Hərbçi üçün bunun əhəmiyyəti yoxdur. Daha dəqiq desək, hərbçi günün 24 saatında da hərbçidir. Bu gün bir daha qürur hissi keçirdik ki, muxtar respublikada yaşayan, fəaliyyət göstərən hərbçilər belə yaşayış tərzini öz vəzifə borcları hesab edirlər. Çünki muxtar respublikanın blokada şəraitində, düşmənlə bir addımlıqda yaşadığını unutmurlar. Onların əməyi isə dövlətimiz tərəfindən yüksək dəyərləndirilir. İş müddətini saatla ölçməyən Zirəddin Quliyev də onlardan biridir.***

Sara ƏZİMOVA

# Sığorta inkişaf edən cəmiyyətin tələbidir

***Cəmiyyət inkişaf edir və insanlar yaxşı yaşamaq üçün hər cür maddi nemət və xidmətlərdən istifadə etməyə çalışırlar. Getdikcə genişlənən istehsal və tikinti işləri, nəqliyyat və rabitə əlaqələri, müasirləşən iş və məişət şəraiti artıq çox deyil, on il əvvəlki səviyyədən xeyli fərqlidir. İndi insanlar rahat ömür sürməyi, evdə, işdə, yolda, bir sözlə, hər yerdə qarşılaşa biləcəyi təhlükələrdən sığortalı yaşamağı çox şeydən daha üstün qiymətləndirir, təsadüfi riskli hadisələrə qarşı hazırlıqlı olmağın vacib tələbat olduğunu real olaraq hər yerdə görürlər.***

Təsadüfi risklər nədir? Hansı hadisələr insanın rahat həyatı və fəaliyyəti üçün risk yaradan amillər hesab olunurlar? Bu suallara aydınlıq gətirən situasiyalarla, demək olar ki, hər zaman rastlaşa bilərik. Məsələn, hər bir insanın yaşadığı binada, yol getdiyi avtomobildə, keçdiyi küçədə elə hadisələr baş verə bilər ki, onların əvvəlcədən vaxtını demək çox çətindir. Yəni zəlzələnin nə zaman olacağını və onun yaşayış sahəsinə və insanın sağlamlığına hansı zərərlər vuracağını heç kim əvvəlcədən deyə bilməz. Belə təsadüfi riskli hadisələr insan yaşayan hər yerdə gözlənilir və onlara inkişaf səviyyəsindən asılı olmayaraq, bütün cəmiyyətlərdə rast gəlinə bilər. Ancaq cəmiyyətin inkişafı hər sahədə dəyişikliyə səbəb olduğu kimi, təsadüfi gözlənilməz hadisələrə qarşı sığortalanmağın təşkili ilə belə hadisələr üzündən dəyə biləcək maddi zərərlərin əvəz olunması sahəsində də xeyli dəyişikliklər özünü göstərir. Gözlənilməz hadisələrin qarşısını almaq üçün nə qədər xəbərdaredici profilaktik tədbirlər görülsə də, bu sahədə texnoloji yeniliklərdən və maarifləndirmədən istifadə olunsa da, onlardan hər zaman yayınmaq praktik olaraq mümkün deyildir. Bu da gözlənilməz hadisələrdən dəyən zərərlərin sığorta yolu ilə əvəzinin ödənilməsinin əhəmiyyətini artırır, onu inkişaf edən cəmiyyətlərin vacib tələbatlarından birinə çevirir.

Qeyd edək ki, təsadüfi riskli hadisələri iki böyük qrupda ümumiləşdirmək olar. Bunlar təbiətdə baş verən və müəyyən dərəcədə insan həyatına da təsir edən kortəbii hadisələr və insanın iqtisadi-mədəni fəaliyyəti ilə əlaqədar olaraq baş verən müxtəlif texnogen mənşəli hadisələrdir. Ancaq bunların bir ümumiləşdirici xüsusiyyəti vardır ki, istər təbii, istərsə də texnogen hadisələr olsun, onların baş verəcəyi zamanı və yeri əvvəlcədən müəyyənləşdirmək çox çətindir. Onlar baş verdiyi zaman bu və ya digər dərəcədə insan həyatına, onun sağlamlığına və əmlakına zərər vurur. Deməli, insanın yaşadığı və fəaliyyət göstərdiyi yer haradırsa, orda da müəyyən risk dərəcəsi doğuran gözlənilməz hadisələr olacaqdır. Bununla yanaşı, planetdə insan sayının artması, texnologiyanın inkişafı və insanların həyat tərzində sürət və komfort kimi mədəni tələblərin ən yüksək səviyyəyə qalxması da, öz növbəsində, riskli təsadüfi hadisələrin ehtimalını artırır. Belə hadisələrdən vaxtında sığortalanmaq isə cəmiyyətin inkişafının diqtə etdiyi vacib mədəni tələbatlardan biridir. Çünki hər bir insan cəmiyyət üzvüdür və ona rast gələn istənilən təsadüfi hadisənin nəticəsi təkcə özünü deyil, onunla eyni iqtisadi və mədəni mənafeləri paylaşan digər insanları da narahat edir.

Sığortanın əhəmiyyəti, sığortaya yanaşma cəmiyyətdə müxtəlif təbəqələrdən olan insanlar üçün eyni dərəcədə olmasa da, gözlənilməz bir hadisədən sığortalanmaq, əslində, hər bir insanın şüurlu həyat və fəaliyyətində, bir növ, təbii olaraq formalaşan bir tələbatdır. Bu məqamda, hər bir kəsin həyatında gözlənilməz xərclərini ödəmək üçün topladığı bir miqdar pul vəsaiti olduğu yadımıza düşür. Adamların “qara gün” üçün topladığı bu vəsait, əslində, primitiv sığorta fondudur. Buna ona görə primitiv deyirik ki, birincisi, bu vəsaitin həcmi hər hansı sığorta təşkilatında toplanan sığorta fondu qədər etibarlı səviyyədə deyil, ikincisi isə cəmiyyətdə çox az sayda adama rast gəlinər ki, o, sığortanın tələb etdiyi qaydalara uyğun, məsələn, icbari sığorta haqqı ödəməklə bu fondun yaradılması qayğısına qalsın və sabah hər hansı hadisə baş verəndə həmin vəsaitdən istifadə edib öz zərərlərini qarşılasın. Buna görə də günümüzdə bəzi insanların sığorta olunmadığı üçün orta risk dərəcəli təsadüfi bir hadisə ilə üzləşərkən çətin maddi vəziyyətə düşməsinə rast gəlinə bilir. Halbuki belə hallardan nəticə çıxaran əksər insanlar nəinki icbari sığorta növləri üzrə, hətta könüllü sığorta növləri üzrə də sığortalanmaqla öz gələcəyini zəmanət altına almış olur, dəyə biləcək zərərlərin əvəzinin ödənilməsini sığorta agentliyinə həvalə edərək rahat həyat sürürlər. Təkcə icbari sığortalar üzrə ödənilən məbləğə baxsaq, dəyən ziyanın kifayət qədər qarşılandığını görərik. Məsələn, Naxçıvan şəhərində daşınmaz əmlakın sığortası üçün ödənilən 40 manatlıq sığorta haqqı müqabilində 20 min manat sığorta məbləği ödənilməsi nəzərdə tutulur. Yəni hər kəsin 20 min manatlıq ehtiyat vəsait toplamaq əvəzinə ildə, sadəcə, 40 manat ödəyərək dəyə biləcək zərərləri zəmanət altına alması daha məqsədəuyğun və ağıllı seçimdir. Qədim fəaliyyət tarixinə malik olan sığorta işinə olan etibar da bu yolla formalaşmışdır.

Sığortanın mahiyyətində insan fəaliyyəti nəticəsində törənən texnogen mənşəli hadisələrin vurduğu zərərlərin ödənilməsi də mühüm yer tutur. Çünki hazırda istehsal və xidmət sahələrində yüksək fəallıq yaranmış, sahibkarlıq fəaliyyəti genişlənmiş, sürətli nəqliyyat vasitələrindən, müasir texniki qurğulardan istifadə olunmaqdadır. Və bu inkişaf, öz növbəsində, rast gəlinən qəza və bədbəxt hadisələri də müəyyən dərəcədə qaçılmaz edir. İşdə və ya yolda ehtiyatsızlıq, diqqətsizlik nəticəsində, habelə texnoloji avadanlıqlarla iş zamanı baş verən qəzalar səbəbindən maddi itkilər yaranır, insan sağlamlığına zərərlər dəyir. Həm də burada diqqət ediləcək məqam ondadır ki, belə hadisələr baş verdikdə hadisənin səbəbkarları öz mülki məsuliyyəti çərçivəsində digər insanlara vurduğu zərərlərin də ödənilməsini həyata keçirməlidirlər. Bu isə bəzən elə bir həcmdə ola bilər ki, sığortasız insan, sözün əsl mənasında, çıxılmaz vəziyyətə düşər, başqalarına vurulmuş zərərə görə bütün maddi imkanlarından məhrum ola bilər. Bu baş verməsin deyə, daşınmaz əmlakın istismarı və avtomobil nəqliyyatı vasitələrindən istifadə zamanı mülki məsuliyyətin sığortası tətbiq olunur ki, onun da icbariliyi məsələnin yuxarıda qeyd olunan geniş ictimai maraq kəsb etməsi ilə əlaqədardır.

*Göründüyü kimi, sığorta və sığorta olunmağın risklərə və gözlənilməz təsadüfi hadisələrə qarşı mühüm bir xəbərdaredici əhəmiyyəti vardır. Sığorta olunmaqla ev, iş yeri və avtomobil sahibi rast gələ biləcəyi gözlənilməz hadisələrə, bir növ, əvvəlcədən hazırlıqlı olur və öz gələcək həyatını zəmanət altına alır. Bu da inkişaf edən müasir cəmiyyətin bir tələbidir.*

Əli CABBAROV

## Nəzarətçi-müəllimlərlə seminar-məşğələlərə başlanılıb

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi tərəfindən yaradılmış “Nəzarətçi-müəllimlərin qeydiyyatı” məlumat bazasına muxtar respublikanın ümumtəhsil məktəblərindən 698 nəfər nəzarətçi-müəllim haqda məlumatlar daxil edilib. Onlardan 200 nəfəri test imtahanlarına ilk dəfə nəzarətçi qismində cəlb olunacaq müəllimlərdir. Hazırda isə sözügedən bölmə tərəfindən məktəblərdə keçiriləcək sınaq-test imtahanlarına nəzarətçi qismində cəlb olunacaq müəllimlərlə seminar-məşğələlərin keçirilməsi üçün hazırlıqlara başlanılıb. Nəzarətçi-müəllimlərlə ilk seminar-məşğələ yanvarın 27-də Ordubad rayonunda keçirilib. Naxçıvan şəhərində və bölgələrimizdə davam etdiriləcək məşğələlər fevralın 5-dək davam edəcək.

Bu barədə məlumat redaksiyaya Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsindən daxil olub. Məlumatda o da bildirilib ki, seminar-məşğələlərin keçirilməsində məqsəd nəzarətçi-müəllimləri qəbul imtahanının texnologiyası ilə yaxından tanış etmək, imtahanları təlimata uyğun keçirməyə hazırlamaqdır. Seminar-məşğələlər regional bölmənin məsul əməkdaşları tərəfindən aparılacaq. Məşğələlərdə iştirak edən müəllimlər, xüsusən bu prosesə ilk dəfə cəlb edilən nəzarətçilər aprel ayından etibarən TQDK tərəfindən keçiriləcək sınaq imtahanlarında nəzarətçi kimi iştirak edəcəklər. Bu da onların seminarlarda əldə etdikləri nəzəri bilikləri təcrübədə tətbiq etmələrinə kömək edəcək. Sınaq imtahanlarında nəzarətçi kimi özünü doğruldan müəllimlər qəbul imtahanlarına cəlb olunacaqlar.

**Xəbərlər şöbəsi**

## Küncüd və zəyərək haqqında nə bilirik?

***Xalqımızın çərəz qidasında cəviz, şabalıd, fındıq, yer cəvizi (araxis), badam, püstə ilə yanaşı, buğda, noxud, mərcimək qovurğası, çöl armudunun qovutu da əsas yer tutur. Hətta yabanı bitən məncalız, çöl qərənfili soğanaqlarının sacda qovrulanda dadı-tamı bir yana, ətri bir yana olur. Bu çərəzlər içərisində küncüd, zəyərək toxumları da qiymətli qidalardandır. Küncüdün ən çox yayıldığı yer Çin, Hindistan və Orta Asiya respublikalarıdır. İstiliksevən bitki olduğundan Naxçıvan torpağında da bitir, bol məhsul verir.***

Küncüdün ağ və qara toxumlu növləri vardır. Xüsusən Novruzda, yaz fəslində insan orqanizminin zəiflədiyi vaxt küncüd qovurğası və küncüdün balla yeyilməsi çox faydalıdır. Günəbaxan da daxil edilməklə fərqlənən yeganə bitkidir ki, toxumlarının tərkibində 65 faizədək qiymətli yağ olur. Küncüd yağından sənayedə mal əti konservləşdirilməsində istifadə edilir. Heyvandarlıqda tərkibi 40 faizədək zülal və 10 faizədək yağlı jımıx hazırlanır ki, bu da olduqca qüvvətli yem sayılır. Küncüd haqqında rəvayət də vardır. Deyir, bir kəsin əziz qonağı gəlir. Süfrədən sonra çərəz kimi ortaya küncüd və bal kasası qoyulur. Ev sahibi harasa gedir, evdə qonaqla uşaq qalır. Qonaq küncüdün necə yeyildiyini uşaqdan soruşur. Uşaq barmağını bala, sonra da küncüd nimçəsindəki toxumlara batırır. Ballı barmağa xeyli küncüd yapışır. Uşaq küncüdün belə yeyilməsini qonağa göstərib barmağını ağzına aparır. Qonaq deyir:

– Hə..., ta öyrəndim, indi dur get tay-tuşlarına oynamağa. Qonaq bilir ki, uşaq da onunla bərabər yeməyə başlasa, nimçədə bir şey qalmayacaq.

Küncüdü Naxçıvanda kərdi üsulu ilə becərirlər. Ordubad tərəflərdə isə xırda arx boyunca əkirlər. Birillik bitkidir. Boyu 1-1,5 metrədək olur. Toxumları çeçələ barmaq iriliyində olan qutucuqlarda bütün gövdə boyu düzülür. Aşağıdan yuxarıya doğru yetişir. Torpaq səthində temperatur 15-16 dərəcə olduqda toxumla, ya da kərdidə böyüdülən şitillə arxlara əkilir. Qida maddələrinə, rütubət və işığa tələbkardır, kölgəliyi sevmir. Toxumları kiçik olduğu üçün (1000 ədədi 3-5 qram) səpin zamanı çox dayaz – 2-3 santimetr dərinliyə əkilməlidir. Cərgəarası gen qoyulduqda becərilməsi asan olur. Hər suvarmadan sonra qaysaqlar yumşaldılır ki, bitkinin kökləri rütubəti və havalanmanı yaxşı qəbul etsin.

İtkisiz məhsul yığmaq istəyənlər gövdədə yetişən qutucuqları bir-bir dərə bilər. Vegetasiya müddəti 3-4 aydır. Kütləvi yığıldıqda hər bitki ehtiyatla möv qayçısı ilə kəsilib palaz üstə səpilir.

Torpaq, qum qarışmadan yığıb dərz kimi bağlayaraq örtük üzərində qurutmaq olar. Küncüdü döyərək təmizləyib xəlbirdən keçirib püfə və qarışıqdan təmizləndikdən sonra sinidə əfsənib lap təmiz hala gətirilir. Çiy və ya qovrulmuş halda ən qiymətli qida kimi yeyilir.

*Zəyərək.* Lifli bitkilərdən olub, birillik bitkidir. Sənayedə ondan alınan lif kəndirlər ikiqat dözümə malikdir. Çadır, təlis, parusin parça sənayesinin xammalıdır. Toxumları isə qiymətli qidadır. Hündürboylu zəyərək sənaye üçün, çiçəkləri mavi olan alçaqboylu zəyərək qida üçün əkilir. Naxçıvanın torpaq və iqlim mühitində bol məhsul verir. Sarı rəngli hamar toxumalarının tərkibində 35-48 faizədək piyli yağ, 18-33 faizədək zülal, yodlu maddələr olur. Dünyanın müxtəlif yerlərində hələ eramızdan 2400 il əvvəl becərilməsinə başlanılıb. Naxçıvan mühitində 2x4 metr sxemində kərdilərə əkilməsi daha münasibdir. 10-12 dərəcə istilikdə asanlıqla cücərir. 70-90 günə yetişir. Toxumları kiçik üzərliyi xatırladan qutucuqlarda olur. Torpağa üzvi gübrə verdikdə məhsuldarlığı yüksəlir. Suvarmaya orta tələbkardır. Məhsulu yığılarkən kökündən torpaqdan çıxarılıb örtük üstə kiçik süpürgə sayağı bir istiqamətdə düzərək qurudulur. Döyülərkən baş tərəfin toxum kütləsinə torpaq qarışmamasına diqqət edilməlidir. Qurumuş qutucuq və yarpaq asanlıqla əzilir. Gövdəsi isə yaxşı süpürgədir. Zəyərək toxumlarının qabığı parlaq olduğu üçün ondan alınan rəng boyaqçılıqda, incəsənətdə işlədilir. Xalq təbabətində ən yaxşı dərman kimi mədə-bağırsaq xoralarının sağaldılmasında isladılıb yumşaldılaraq qəbul edilir. Hətta dəmləməsi qaraciyər, böyrək ağrılarına xeyirlidir. Çiban və dəri yaralarının müalicəsində yarasağaldıcı xüsusiyyəti vardır. Zəyərək sacda qovrulanda çox dadlı olur. Naxçıvan əhalisi xüsusən Xıdır Nəbi, Novruz bayramlarında küncüd, zəyərək toxumlarından daha çox istifadə edir. Necə deyərlər, ağzının dadını bilənə minnət.

**Qaşdar ƏLİYEV**
***aqronom-fenoloq***

## Əsgər Abdullayev: Əsas məqsədimiz ilk dövrədəki uğurları ikinci dövrədə də təkrarlamaqdır

***Futbol üzrə Azərbaycan I divizionunun ilk dövrəsini lider kimi başa vuran “Araz-Naxçıvan” futbol komandası təlim-məşq toplanışını Bakıda davam etdirməkdədir. Hazırlığın necə getdiyini öyrənmək üçün komandanın baş məşqçisi Əsgər Abdullayevlə söhbətləşdik:***



***– “Araz-Naxçıvan” futbol komandası I divizionun lideridir. Sizin artıq komandanı tam olaraq formalaşdırdığınızı söyləmək olarmı?***

– Bir müddət əvvəl “Araz-Naxçıvan”ın I divizionda oynayıb-oynamayacağı sual altında idi. Çətinliklə də olsa, komandanı formalaşdırdıq. Fikirləşdim, komandaya təcrübəli futbolçular lazımdır ki, cavan futbolçular onların təcrübələrindən yararlansınlar. Hal-hazırda liderik, amma bu, qalibik demək deyil. İndi əsas məqsədimiz ilk dövrədəki uğurları ikinci dövrədə təkrarlamaqdır. İlk dövrədə komandanın normal çıxış etdiyini deyə bilərəm.



“Araz-Naxçıvan” və “Simurq” qarşılaşmasından

***– İlk dövrədə komandada çatışmayan cəhətlər hansılar oldu?***

– Elə bir komanda yoxdur ki, onun hər bir işi qaydasında olsun. Hücumda və orta sahədə futbolçu çatışmazlığının olduğunu deyə bilərəm. Hər hansı bir mövqedə az da olsa, çatışmazlıqlar var. Birinci dövrədə biz komanda yığırdıq, indi isə bir neçə mövqeyə futbolçu almaq istəyirik.

***– İndi daha çox hansı mövqeləri gücləndirməyi planlaşdırırsınız?***

– Hər bir mövqeyə oyunçu lazımdır. Lakin bəzi mövqelərə daha çox tələb olunur. Komandada nə qədər çox futbolçu olsa, rəqabət də güclü olar. Qapıçı mövqeyini də yaddan çıxarmaq olmaz.

***– Bəzi məşqçilər I divizionda komanda çalışdırmaq istəmirlər və bunu özlərinə sığışdırmırlar. Ancaq Əsgər Abdullayev bu fikrə fərqli yanaşıb.***

– Mən həmişə demişəm ki, güclülər dəstəsində iddiasız bir klubda işləməkdənsə, I divizionda iddialı bir komandada çalışmaq daha yaxşıdır. Mən komandanın I dəstədə iştirak etməsinə o qədər də əhəmiyyət vermirəm. Mənim üçün harada işləməyimdən asılı olmayaraq, əsas nəticədir. Şəraiti olan bir komandanı bacarığı olan bir məşqçi güclülər dəstəsinə çıxara bilər. Mən bugünkü gündə Naxçıvanda olduğuma görə, qətiyyən təəssüflənmirəm. Burada artıq çempionat da keçirilir. Mən də həmin oyunları izləyirəm ki, heyətə yeni futbolçular qatım.

***– Artıq ikinci dövrənin hazırlıqlarına Bakıda başlamısınız. İndi futbolçular sizə necə təsir bağışlayırlar?***

– Yanvarın 5-dən etibarən toplaşmışıq və hər gün mütəmadi olaraq məşqlərimizi davam etdiririk. Bununla yanaşı, seleksiya işləri ilə də məşğuluq.

***– Bəs komanda kimlərlə yollarını ayıracaq?***

– Göndərilən futbolçular nadir hallarda meydana çıxırdı və onlar yeni komandada daha çox şans qazanmaq üçün ayrılmaq istədiklərini bildirdilər. Belə olan halda, həmin futbolçulara hörmətim artır. İndi onların yerini doldurmaq üçün bir neçə futbolçu dəvət etmişik.

***– Hazırda I divizionda bir çox komanda arasında kəskin mübarizə var və hər biri Premyer-Liqaya yüksəlməyi qarşılarına məqsəd qoyublar. Sizcə, kimin şansı daha çoxdur?***

– Mən məşqçi kimi komandanın hansı komanda ilə oynamağından asılı olmayaraq, oyunlara eyni cür hazırlaşdırıram. Çempion olmaq istəyən komanda hər bir oyuna axırıncı oyun kimi çıxmalıdır. Komandanın vəziyyətini “şişirtmək” lazım deyil. 4-5 komanda arasında rəqabət ola bilər, amma bütün komandalar rəqibdir. Bizim xal itirdiyimiz oyunlara baxın: “Mil-Muğan” və “Neftçala”. Heç kimə yuxarıdan aşağı baxmaq olmaz.

***– “Araz-Naxçıvan” qələbə qazandıqca bəzi insanlar Naxçıvan klubunun hakimlərin hesabına lider olduğunu düşünürlər. Bu haqda fikriniz maraqlı olardı…***

– Hər bir insanın fikrinə hörmətlə yanaşıram. Əvvəllər də mənə bu sualı veriblər. Sadəcə, onu deyə bilərəm ki, kim bu fikirdədirsə, gəlib oyunlarımıza baxsın.

***– Cari mövsümdə “Araz-Naxçıvan” futbol komandası Əsgər Abdullayevin rəhbərliyi altında çempion ola biləcəkmi?***

– Hələ bu barədə danışmaq tezdir. İlk dövrəni lider kimi başa vurduq, indi ikinci dövrəyə daha ciddi hazırlaşırıq. Çünki rəqiblər artıq gücümüzə bələddirlər. Qarşıda həmçinin Azərbaycan kubokunun 1/4 final mərhələsində “Xəzər-Lənkəran”la oyunumuz var. İstənilən rəqibi məğlub etmək gücünə qadir bir komanda formalaşdırmalıyıq.

**Ceyhun MƏMMƏDOV**


### Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

*2014-cü il üçün kotirovka elan edir*

*1.Yuyucu maddələr və digər təsərrüfat malları*
*2.Cari təmir üçün tikinti materialları*
*3.Dəftərxana ləvazimatları*

Kotirovka 5 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi, maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 6 fevral 2014-cü il tarixdə saat 11.00-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu,***
***telefon/faks: 544-48-34***
***Ünvan: Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi***


### İtmişdir

Babək rayonunun Yuxarı Uzunoba kənd sakini Həsənova Məhəbbət Vəli qızının adına olan JN-151A inventar nömrəli, 10311048 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

### Bildiriş

“Ekonsu texnoloji membran sistemləri inşaat sənaye və ticarət anonim” şirkətinin Naxçıvan Muxtar Respublikasındakı filialı fəaliyyətini dayandırdığından ləğv olunur.

### Allah rəhmət eləsin

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli və təşkilatın əməkdaşları YAP Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri Yazgül Rzayevaya, anası **RUQİYYƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivi iş yoldaşları Ramil Məmmədxanova, atası **MƏMMƏD MƏMMƏDXANOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivi idarənin rəhbəri Ceyhun Məmmədxanova, əmisi **MƏMMƏD MƏMMƏDXANOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bayram və Aliyə Rzayevlərə, əzizləri **MƏMMƏD MƏMMƏDXANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Yazgül və Yəmən Rzayevalara, əzizləri **RUQİYYƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov və şuranın kollektivi iş yoldaşları Yəmən Rzayevaya, anası **RUQİYYƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev və kafedranın əməkdaşlarından Allahverdi Hüseynov, Elçin Zamanov, İsmayıl Zeynalov, Xəzər Hüseynov Rafiq Rəhimova, əmisi **HİDAYƏTİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Oqtay Məmmədov adına Şərur rayon Aralıq kənd tam orta məktəbinin kollektivi **MƏMMƏD MƏMMƏDXANOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Laboratoriya şöbəsinin işçiləri iş yoldaşları Yazgül və Yəmən Rzayevalara, əzizləri **RUQİYYƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Məmməd Hüseynəliyevə, əzizi **RUQİYYƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 105